# 10 may 2013-cü ildə ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyi tamam olur!

http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №05 (1559) 15 mart 2013 - cü il Qiyməti 20 qəpik

# Ümummilli liderimiz Heydər Əliyevin 90 illiyi qarşısında



## Baş redaktordan

**◆ Ümummilli liderimiz, dünya şöhrətli dahi siyasi xadim Heydər Əliyevin əziz xatirəsi hər bir Azərbaycan vətəndaşının yaddaşında əbədi olaraq qalacaq, yaşayacaq və gələcək nəsillərə ötürüləcək. Hər bir millətin tarixində və taleyində böyük şəxsiyyətlər, dahilər və öndərlər olur; onu haqq yoluna yönəldir, nicat, qurtuluş yolunu göstərir, bu yolla gedir, arxasınca mənsub olduğu xalqı aparır. Belə mütəşəkkillik olanda, toplumun inamı bir şəxsdə birləşib həmrəylik yarananda xalq millət ola bilir. Onün dövləti də, şöhrəti də, ordusu da olur. Belə böyük şəxsiyyət yetişdirməyən xalq millət ola bilmir; yəni onun nə dövləti olur, nə də şöhrəti, torpağı da yağı ordusunun tapdağı altında qalır.**

Heydər Əliyev qeyri-adi bir şəxsiyyət idi. Tanrıdan ona vergi verilmişdi, müqəddəs bir missiya tapşırılmışdı, bir millətin xilası ona həvalə olunmuşdu. Qədim zamanlarda belə missiya daşıyıcılarına peyğəmbər anlamına gələn və peyğəmbərliyin bir forması olan Nəbi deyirdilər. Bəşəriyyətin inkişafında peyğəmbərlər və peyğəmbər təbiətli dahi, müdrik şəxsiyyətlər böyük rol oynayıblar. Heç şübhəsiz, bu bəşəri əhəmiyyətli hadisələr Tanrı iradəsindən kənarda baş verməyib. Azərbaycan da ağzı dualı insanlardan məhrum bir məmləkət deyil.

Ona görə də ağsaqqal və ağbirçəklərimizin Tanrıya ünvanlanan dua və sənaları cavabsız buraxılmadı; hər məqama uyğun ərməğanını, könlünə müvafiq ödülünü aldı.

Başı qarlı uca dağlar kimi qos-qoca bir xalqın canından, qanından və genindən Heydər Əlirza oğlu doğuldu, bəlkə də zühür etdi. Zühur etdi ki, haqqa doğru gedən ən kəsə və ən qısa yolların sirrini açsın. Dəryalardan dərin Heydər zəkası kədərin və milli fəlakətlərimizin kökünü kəsmək üçün gəldi. Gəldi ki, insanları millət etsin, xaosdan kosmos yaratsın, dünyaya yeni düzən versin. Tanrı harmoniyası Vətənin və millətin başı üzərində yenidən və bu dəfə həmişəlik, əbədilik hakim kəsildi.

Heydər Əliyev ömrünü, bütün imkan və qabiliyyətini, bilik və baçarığını xalqa həsr etdi, canını canından artıq sevdiyi Azərbaycana fəda edib getdi. Bizə və gələcək nəsillərə bir Öndər örnəyi miras saxladı. Göstərdi ki, millətə yorulmadan necə xidmət etmək olar, dağılmış bir məmləkəti necə dövlət etmək olar, xaosda ahəngi və həyat ritmini Tanrı axarına, ilahi məcraya necə yönəltmək olar və nəyahət milləti necə sevmək və sevdirmək olar.

# Rektor bir qrup tələbə-rezidenti qəbul etmişdir

**Martın 14-də Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov universitetin dairəvi zalında bir qrup tələbə-rezidenti qəbul etmişdir.**

Universitet Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Novruzov məlumat üçün bildirdi ki, fevralın 4-dən 8-dək «5 günlük rezident ol!» layihəsi çərçivəsində 48 tələbə 16 kafedrada istədikləri ixtisaslar üzrə təcrübə keçmişlər. O, əsas məqsədi hər bir tələbənin rezidenturaya baxışının formalaşdırılması olan bu layihənin reallaşmasında göstərdiyi diqqət və qayğıya görə rektora təşəkkürlərini çatdırdı. Eyni zamanda tələbə-rezidentlərə hər cür şərait yaradan Onkoloji, Tədris-Terapevtik və Stomatoloji Klinikaların, Gigiyena Epidemioloji Mərkəzin, cərrahi xəstəliklər, ümumi cərrahiyyə, ağız-üz, çənə, dəri-zöhrəvi və digər kafedraların rəhbərliklərindən də razı qaldıqlarını söylədi.





Ə.Əmiraslanov tələbələrin rezidenturaya marağını müsbət hal kimi dəyərləndirərək bu sahədə daim irəliləyişlərin olacağına əminliyini dilə gətirdi. İnternatura sisteminin özünü doğrultmadığını vurğulayan rektor, zaman-zaman müəyyən qüvvələrin rezidenturaya qarşı çıxdıqlarını da xatırlatdı. O, dünyanın qəbul etdiyi bu mütərəqqi sistemin ildən-ilə təkmilləşdirilməsini zəruri sayaraq rezidentlərin rotasiyası probleminə də toxundu. Diqqəti bu sistemdə aparılan işlərin yüksələn xətlə getdiyinə yönəldərək qeyd etdi ki, dünən 28 tələbəmizi təcrübə keçmək üçün Türkiyənin Samsun Universitetinə yola saldıq. Keçən il 62 məzunumuz Almaniyada rezidentura keçiblər. 300-ə yaxın məzunumuz Türkiyədə uzmanlıq qazanıblar. Bütün bunlar sizlərə stimul verməlidir.

Ə.Əmiraslanov bu layihədə iştirak edən tələbələrin gələcəkdə seçdikləri ixtisaslar üzrə rezidenturanı qazanacaq-larına inandığını bildirdi, onlara uğurlar dilədi.



I müalicə-profilaktika fakültəsinin V kurs, 35ᵃ qrup tələbəsi Günel Əfəndiyeva tələbələr adından təcrübə keçdiyi Onkoloji Klinikanın rəhbərliyinə, kuratorlarına öz təşəkkürünü bildirdi, göstərilən etimadı doğruldacaqlarına söz verdi.

Sonda rektor tələbələri keçdikləri ixtisaslar üzrə sertifikatlarla təltif etdi.

**Arif MƏMMƏDLİ**

# BÖYÜK İNSAN, GÖRKƏMLİ İQTİSADÇI ALİM, MÜDRİK EL AĞSAQQALI



**Elm elə bir həyatın xəzinəsidir ki, onun sahibi alimdir. Tanınmış alimlərdən biri də AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor, Beynəlxalq Menecment Akademiyasının həqiqi üzvü, Beynəlxalq Enerji-İnformasiya Akademiyasının akademiki, Beynəlxalq İqtisadçılar İttifaqının üzvü, Aqil Əlirza oğlu Əliyevdir.**

XX əsrin tanınmış ziyalısının şərəfli ömür yolu elmə, təhsilə, səhiyyənin inkişafına xidmətin ən bariz nümunəsi olmuşdur. Xalq arasında bu insana böyük hörmət və ehtiram vardı. A.Əliyev bunu çoxillik gərgin və halal zəhməti, yüksək intellekti, tədqiqatçılıq bacarığı, güclü məntiqi, iti, aydın təfəkkürü, xeyirxahlığı və digər səciyyəli xüsusiyyətləri sayəsində qazanmışdı. Aqil Əlirza oğlu ziyalı, alim, vətəndaş kimi daim ucalarda dayanan mötəbər şəxsiyyət idi. Onun öz məktəbi, öz elmi, öz zirvəsi vardı.

Aqil Əliyev 1926-cı il dekabrın 10-da Naxçıvan şəhərində dünyaya göz açmış, 1951-ci ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU) bitirmişdir. Tale onu 1953-cü ildə Azərbaycan Tibb Universitetinə gətirmişdir. O, ömrünün sonunadək bu ali təhsil ocağında işləmişdir. İqtisadi nəzəriyyə və hüququn əsasları kafedrasında əvvəlcə müəllim vəzifəsində çalışmış, az sonra həmin kafedranın dosenti, 1973-cü ildə müdiri seçilmişdir. 1970-ci ildə namizədlik, 1983-cü ildə doktorluq dissertasiyaları müdafiə etmiş, 1979-cu ildə professor elmi adını almışdır.

Aqil müəllim yaxşı pedaqoq, məharətli natiq idi, elmi diskusiyalarda kəskinliyi və prinsipiallığı ilə seçilirdi. Dərin təhsil qabiliyyəti ilə aşılanmış düşüncə tərzinə malik idi. Alimin elmi araşdırmalarının əsas xüsusiyyətini yığcamlıq, konkretlik, aydınlıq və şəffaflıq təşkil edirdi. Onun rəhbərlik etdiyi Siyasi iqtisad kafedrası ciddi elmi uğurlar əldə etmiş, tədris-metodik, elmi-tədqiqat və ictimai-siyasi sahələrdə böyük nailiyyətlər qazanmışdır. Dəfələrlə təhsil ocağının ən yaxşı kafedrası adına layiq görülmüşdür. Professorun elmi fəaliyyətində Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemlərinin araşdırılması mühüm yer tutmuşdur.

Aqil Əliyev Azərbaycan Tibb Universitetinin, AMEA-nın İqtisadiyyat İnstitutunun, Azərbaycan Dövlət İqtisad Universitetinin elmi şuralarının üzvü olmuşdur.

Görkəmli alim tibb kafedralarının hazırlığı məsələsinə daim diqqətlə yanaşmış və onun rəhbərliyi altında doktorluq və çox sayda namizədlik dissertasiyaları müdafiə edilmişdir. Aqil müəllimin yetirmələri bu gün onun yolunu uğurla davam etdirir, iqtisad elminin nəzəri və praktiki məsələlərinin tədqiqi ilə məşğul olurlar. Ölkənin elə bir səhiyyə müəssisəsi yoxdur ki, orada bu elm xadiminin tələbələri çalışmasınlar. Onlar qayğıkeş müəllimlərini həmişə ehtiramla xatırlayır, bu böyük insanın məsləhətlərini, tövsiyələrini həyat məramı kimi qəbul edirlər. Vaxtilə Azərbaycan Tibb Universitetində təhsil almış, indi isə xalqın sağlamlığı keşiyində duran hər bir həkimin yaddaşında Aqil Əliyevin xüsusi yeri var. İqtisad elminin cəfakeşi, xeyirxah və qayğıkeş alim Vətəni və xalqı qarşısında xidmətlərinə görə "Şöhrət" və "Qırmızı Əmək Bayrağı" ordenlərinə, "Səhiyyə əlaçısı" döş nişanına, bir çox medal və fəxri fərmanlara layiq görülmüşdür.

Alim 200-dək elmi əsərin, o cümlədən 32 monoqrafiya və kitabın müəllifidir. Onun bir sıra əsərləri Moskvada, Sankt-Peterburqda, Çexiyada və digər xarici ölkələrdə çap olunmuşdur.

Yaradıcılığının ən mühüm hissəsini iqtisad elminin inkişafına və tədrisinə həsr edən professor Aqil Əliyevin tədqiqatlarında həyat səviyyəsi, istehlak problemləri xüsusi yer tutur. Bu da onun elmi maraq dairəsinin geniş və əhatəli olmasına dəlalət edir.

Professor tədqiqatlarında sosial sahənin, konkret olaraq səhiyyənin inkişafı ilə iqtisadi inkişaf arasında qarşılıqlı əlaqənin olmasını əsaslandırır, insan sivilizasiyasının taleyinə ciddi təsir edən tibbin problemlərini ortaya qoyur. Aqil Əliyev SSRİ məkanında, o cümlədən respublikamızda bu sahənin iqtisadiyyatı məsələləri ilə məşğul olan ilk iqtisadçı alimlərdəndir. "Azərbaycanda ərzaq proqramının mahiyyəti və mənbələri", "Həkim əməyi və elmi-texniki tərəqqi", "ATİ-nin maddi-texniki bazasının möhkəmləndirilməsinin iqtisadi məsələləri", "Səhiyyənin iqtisadiyyatı" kimi əsərlərində sübut etmişdir ki, bu sahənin qeyri-istehsal sferasına aid edilməsi nisbi xarakter daşıyır, buraya sərf edilən əməyi qeyri-məhsuldar əmək adlandırmaq olmaz. Səhiyyənin tərəqqisi ictimai istehsalın inkişafına, onun səmərəliliyinə bilavasitə təsir göstərir.

Professorun əsərləri arasında müasir dövr və bazar iqtisadiyyatına keçidlə bağlı tədqiqatlar xüsusi yer tutur. Bu sahədə onun bir neçə monoqrafiyası və 80-ə yaxın əsəri çapdan çıxmışdır. Həmin əsərlər içərisində "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu", "Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri", "İpək yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur", "Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti", "Özəlləşdirmə və sahibkarlıq fəaliyyətinin inkişafı", "Dünya iqtisadiyyatı: müasir dövrün problemləri", "Azərbaycan gömrüyü iqtisadi inkişaf yollarında", "Səhiyyənin iqtisadiyyatı", "Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri", "Naxçıvan qədim diyardır", "Milli iqtisadiyyatımızın aktual problemləri", "Demokratikləşmə milli iqtisadiyyatımızın inkişafının əsasıdır", "Naxçıvan Muxtar Respublikası (nailiyyətlər və problemlər)" adlı ikicildlik ensiklopedik əsər (professor Ə.Qasımovla birlikdə) və s. xüsusi yer tutur.

2001-ci ildə işıq üzü görən ikicildlik "Naxçıvan Muxtar Respublikası (nailiyyətlər və problemlər)" ensiklopedik əsər mətbuat səhifələrində dönə-dönə dəyərli bir tədqiqat kimi qiymətləndirilmişdir. Həmin kitabı yazmaq üçün müəllif Naxçıvan diyarının tarixini, coğrafiyasını, iqtisadiyyatını, sosial həyatını, məişətini, səhiyyəsini, maarifini, mədəniyyətini hərtərəfli öyrənmişdir. Naxçıvanda dünyaya göz açmış şairlərin, yazıçıların, ədiblərin, generalların, admiralların, dövlət xadimlərinin, akademiklərin, incəsənət işçilərinin həyat və fəaliyyəti araşdırılmışdır. Bu isə tədqiqatçıdan çox böyük səriştə, səbir, akademik mədəniyyət və qüdrətli qələm tələb edirdi. Aqil Əliyev bu nəhəng işin öhdəsindən layiqincə gəlmiş və fundamental bir əsəri oxuculara təqdim etmişdir.

Professor Aqil Əliyev beynəlxalq və respublika əhəmiyyətli bir çox elmi-praktik konfransların, simpoziumların və seminarların iştirakçısı olmuş, həmin elmi məclislərdə Azərbaycanın iqtisad elmini layiqincə təmsil etmişdir.

Görkəmli alimin "İpək yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur" monoqrafiyası geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanmışdır. Monoqrafiyada həm İpək yolunun tarixi, ayrı-ayrı ölkələrin iqtisadiyyatında oynadığı rol, həm də Şərqlə Qərbin mədəni əlaqələri öz əksini tapmışdır. Əsərdə bərpa olunacaq tarixi İpək yolunun gələcək perspektivləri də nəzərdən keçirilmişdir.

Aqil Əliyev 1986-2005-ci illərdə Azərbaycanın elmi-texniki inkişafının kompleks proqramının işlənilməsində yaxından iştirak etmiş, "Əhalinin sağlamlığının qorunması" komissiyasının sədri olmuşdur. Əhalinin sağlamlığının qorunması bölməsi onun tərəfindən tərtib edilərək kompleks proqrama daxil edilmişdir. Alim müasir ruhlu tədqiqatçı olaraq bu gün də aktual olan, sabah da əhəmiyyətini itirməyən məsələləri elmi araşdırmaya cəlb etmiş, uğurlu nəticələrə nail olmuşdur.

Aqil Əliyevin həyatı müəllimliyin, ziyalılığın, alimliyin birgə vəhdətinin ifadəsi idi. O, ayrı-ayrı məsələlərə öz prinsipial mövqeyi və elmi səviyyəsi baxımından qiymət verməyi bacarırdı. Söhbətlərində güclü məntiq və səlislik diqqəti cəlb edirdi. Hiss olunurdu ki, geniş mütaliə sahibidir. Onun söhbətləri hər bir dinləyici üçün intellektual təfəkkürün inkişafı idi və bu söhbətlər yaddaşlarda əbədi olaraq qalırdı. Görkəmli alim gəncləri çox sevirdi, onlara inanır, qayğı göstərir, əməklərini qiymətləndirirdi. Onun zəkası, istedadı, həyat tərzi, dünyaya və özünə münasibəti sözün həqiqi mənasında örnək idi.

Xalqımızın ən gözəl xüsusiyyətlərindən olan insana yaxşılıq etmək, qayğı göstərmək Aqil müəllimin əqidə manifesti idi. Onun kömək etdiyi insanların sayını müəyyənləşdirmək çox çətindir.

Aqil müəllim xalqa xidməti həyatının mənası və məqsədi hesab edirdi. Saf əqidəsi və məsləyi olan əsl ziyalı idi. Onun əqidəsi humanizmə, həqiqətə, ədalətə söykənirdi.

Görkəmli alim Aqil Əliyev yarım əsrdən çox Azərbaycan Tibb Universitetində kafedra müdiri kimi gələcək həkimlərə siyasi iqtisad fənninin incəliklərini öyrətmişdir. O, yaradıcı alim və yaradıcı insan, gözəl pedaqoq idi. Professorun mühazirələrində daim real həyat, xalqımızın sosial-iqtisadi həyatı ilə bağlı faktlar, ümumiləşdirmələr xüsusi yer tuturdu. O, elmlə ucalmış, zəngin yaradıcı fəaliyyəti ilə Azərbaycanın inkişafına xidmət etmişdir. Onun mahiyyətinə, məzmununa, mənə yükünə görə böyük ömür yoluna baxanda yalnız işıq, nur, insan istisindən və qayğısından səadətə qovuşmuş onlarca talelər görünür. Bu, əsl ziyalı yoludur, böyük amallara, işlərə həsr olunmuş və həm də hamının gedə bilmədiyi bir yoldur.

**Yavər VƏLİYEV,**
***Azərbaycan Tibb Universitetinin İqtisadi nəzəriyyə və hüququn əsasları kafedrasının müdiri, dosent***

# 1 Mart Ümumdünya Mülki Müdafiə Günüdür

◆ **Universitetin Mülki Müdafiə Qərargahının təşkilatçılığı ilə Mülki Müdafiə Tibb xidmətinin Təşkili Kursunda hərbiləşdirilməmiş Mülki Müdafiə qüvvələrinin komandir-rəis heyətinin tələbələrlə birlikdə nəzəri tədbiri keçirilmişdir.**

Tədbiri açan Qərargah rəisi Firdovsi Məmmədov ilk öncə Xocalı soyqırımı qurbanlarının xatirəsinin anılmasını təklif etmişdir.

Anımdan sonra MMTX təşkili kursunun baş müəllimi - hərbiləşdirilməmiş MM qüvvələrinin ümumi komandiri Aqil Musayev çıxış edərək bildirdi ki:

Bu gün fövqəladə hallar, mülki müdafiə söz birləşmələri dilimizdə tez-tez səslənməklə yanaşı, həm də həyatımıza, təfəkkürümüzə daha dərindən nüfuz etməkdədir. Əslində bu onun göstəricisidir ki, sivilizasiyamızın tarixi, bizi əhatə edən aləmin mövcudluğu, varlığı fövqəladə hallarla üzvi surətdə bağlıdır.

Əhalinin mühafizəsini təşkil etmək, fövqəladə hallardan mühafizə sahəsində əhalinin hazırlığını təmin etmək mülki müdafiə orqanları qarşısında bir nömrəli vəzifə kimi durur.





Fotolar Cənnətalı Çingizindir

Beynəlxalq Mülki Müdafiə Təşkilatı (BMMT) Baş Məclisinin qərarı ilə 1972-ci ildən etibarən, hər il martın 1-i bu təşkilata üzv olan bütün ölkələrdə "Ümumdünya Mülki Müdafiə Günü" kimi qeyd edilir. BMMT-nin əhatə etdiyi dövlətlərdə məqsəd dinc əhalinin mühafizəsi sahəsindəki təcrübəni ümumiləşdirib yaymaq, habelə təbii fəlakətlər və iri qəzalar zamanı dövlətlərarası qarşılıqlı yardımı təşkil etməkdir.

Azərbaycan Respublikası 1993-cü ildə bu humanitar təşkilatın üzvlüyünə qəbul edilmiş və onun keçirdiyi bütün tədbirlərin fəal iştirakçısıdır. Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş tədbirlərdə Fövqəladə Hallar Nazirliyinin qurumları fəal iştirak edir.

Sonra FHN-nin MM idarəsinin Nəsimi rayon FH və MM şöbəsinin rəisi çıxış etdi. O, bildirdi ki:

Beynəlxalq Mülki Müdafiə Təşkilatı 1995-ci ildən başlayaraq təşkilata üzv olan dövlətlərdə hər il konkret bir mövzuya həsr olunan kütləvi tədbirlərin keçirilməsini təşkil edir.

Bu ilki mövzusunun adı "Mülki Müdafiə və əhalinin fəlakət riskinin qarşısının alınmasına hazırlanması"dır.

Təbii ki, dünya sürətlə dəyişdiyi üçün əhalinin mülki müdafiəyə hazırlanmasında təlimlərin, məşqlərin, kompleks yoxlamaların böyük əhəmiyyəti var. Belə tədbirlər zamanı mühafizəyə hazırlığın vəziyyətinə bir növ baxış keçirilir, çatışmazlıqlar aradan qaldırılır, ekstremal hallarda necə hərəkət etmək yolları və üsulları işçilərə əyani surətdə göstərilir, mülki müdafiə rəhbərləri idarəetmə vərdişləri qazanırlar. Mühafizəyə hazırlığın düzgün təşkili həm də işçilərin MM biliklərinə və vərdişlərinə yiyələnmələri, vaxtaşırı keçirilən təlimlər və məşqlər kollektiv və fərdi mühafizə vasitələrinin daim saz vəziyyətdə saxlanması deməkdir. Mülki müdafiə sisteminin əhəmiyyəti, onun təhlükəsizlik xidmətləri kompleksində rolu və yeri, təbii fəlakətlərin, istehsalat qəzalarının və başqa bədbəxt hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində görülən işlər barədə əhali məlumatlandırılır, praktik vərdişlərinin təkmilləşdirilməsi istiqamətində konkret addımlar atılır.

**Fəridə Mirzəyeva,**
***MMQ-nin məsul katibi***

# Tədris-Terapevtik Klinikanın tibbi şurasının növbəti genişləndirilmiş toplantısı oldu

**Martın 7-də Tədris-Terapevtik Klinikanın tibbi şurasının növbəti genişləndirilmiş toplantısı oldu.**

Toplantını klinikanın direktoru, professor Surxay Musayev açaraq əvvəlcə qadın əməkdaşları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik etdi. Bu dəfəki toplantıda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ayırdığı vəsait hesabına ölkəmizə gələn aparıcı mütəxəssislərin də iştirak etdiyini vurğulayan S.Musayev onlar haqqında qısa məlumat verərək bildirdi ki, neyroradiologiya, məhkəmə-tibbi radiologiya, MRT texnikası üzrə mütəxəssis olan Dr. Robert Noordveld 1984-cü ildən MRT ilə məşğul olur.





Dr. Onno van Baolen isə Hollandiyanın Holkholm şəhərindəndir. 2004-cü ilədək Queen Beafrius hospitalında "internal medicine" (terapevt), 2004-cü ildən qastroenteroloq kimi fəaliyyət göstərir. Qastroenteroloq, hepatoloq, endoskopiya (qastroskopiya, kolonoskopiya, ERCP) üzrə mütəxəssisdir.

Həftənin I günü kardioloqlar, II günü şüa diaqnostikası üzrə mütəxəssislər, III günü pediatrlar, IV günü radioloq və qastroenteroloqlar burada mühazirə oxuyacaq, dəyirmi masa keçirəcək və praktiki işlər aparacaqlar. Mamaginekoloqlar isə həftənin V günü mühazirəni burada oxuyacaq, amma praktiki işlərini Mama-Ginekologiya İnstitutunda həyata keçirəcəklər. Hörmətli rektorumuz akademik Əhliman Əmiraslanov bu barədə kafedra müdirlərini məlumatlandırıb.

Qonaqlar çıxış edərək klinika ilə tanışlıqdan məmnun olduqlarını və yüksək səviyyədə əməkdaşlıq edəcəklərinə əmin olduqlarını bildirdilər.

Sonra daxili məsələlərin müzakirəsinə keçildi. Klinikanın baş həkimi Cəfər Əhmədov həftəlik hesabatını əsasən statistik rəqəmlər üzərində quraraq I terapiyada 12, II terapiyada 20, III terapiyada 28, IV terapiyada 6, V və VI terapiyanın hər birində 16, nevrologiyada 20, ümumilikdə 118, I pediatriyada 5, II pediatriyada 21, III pediatriyada 23, ümumilikdə 49, digər şöbələrdə 11 xəstə olduğunu diqqətə çatdırdı.

Xəstələrin daxilolma və çıxmasına dair həftəlik orta göstərici, gündüz stasionarında müalicə alan xəstələrin sayı haqqında da məlumat verən baş həkim klinikaya yanvar ayında 448, fevral ayında 534, keçən həftə 32, bu həftə isə 39 xəstənin daxil olduğunu, artım tendensiyasına baxmayaraq çarpayı fonduna görə bu rəqəmlərin qənaətbəxş olmadığını dedi.

S.Musayev klinikada rezidentlərlə aparılan işin vəziyyətinə də aydınlıq gətirərək daxili nizam-intizamın zəruriliyini önə çəkdi. Gündüz və gecə növbələri ilə bağlı klinika rəhbərliyinin müəyyənləşdirdiyi növbətçilik qrafikində dəyişikliyin ailə vəziyyəti ilə əlaqədar müvafiq arayış təqdim etdikdə mümkünlüyünü vurğuladı.

**A.KAMRANOLĞLU**

# Novruz yazın gəlişini simvolizə edən qədim xalq bayramıdır

**Novruz bayramı (Yeni Gün bayramı, Ərgənəgün Bayramı, Bahar bayramı; fars. نو روز - Nou ruz, özbək. Navruz, türkm. Nowruz, kürd. Newroz, qazax. Nauriz, qırğız. Nooruz, türk. Nevruz, krımtatar. Navrez) - yazın gəlişini simvolizə edən qədim xalq bayramıdır.**

Novruz Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə (martın 20-si, 21-i və ya 22-sində) keçirilir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişlər. Qədim zamanlardan başlayaraq İran, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi başqa şərq xalqları ilə yanaşı azərbaycanlılar da baharın - yeni ilin gəlişini şənliklərlə qarşılayırdılar. Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır. Novruz həmçinin Bəhai təqvimində ilin ilk günüdür.

2009-cu il sentyabrın 30-da Novruz YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i «Beynəlxalq Novruz Günü» elan edilmişdir.

Sizin fərəhli gününüzdə şənlənirik, qəmli günlərinizdə qüssələnirik. Həqiqətən də xalqımızın ən gözəl milli və mənəvi dəyərlərini aşkar şəkildə bütün dünyaya nümayiş etdirən sevinc bayramıdır. Bu günlərdə uşaqdan böyüyədək hər kəs biri-birinin evinə gedərək əhdlərini təzələyər və bir-birlərinə xoş gəldin deyərlər. Kimisi bu bayramı öz əzizləri ilə birgə ata-baba ocağında qeyd edir, kimisi isə illər boyu bu bayramı birgə keçirdikləri əzizlərini ata-baba ocağında deyil yeni mənzilləri olan qəbristanlıqlarda ziyarət edərlər. Bu bayram özündə yoxsullara əl tutmaq və pənah gətirəni əli boş qaytarmamaq kimi insaniyyətin ən ali hədəflərini əks etdirir. Bu bayram xalqımızda o qədər gözəl və xoş təsir buraxmışdır ki, baharın gəlişinə sevinənlər öz evlərini təmir edib, yeni paltarlar alıb bayrama tədarük görərlər. Bayram süfrəmizə gəlincə, onun gözəlliyini sözlə ifadə etmək mümkün deyil. Məhz buna görə də bu gözəllik qarşısındakı emosiyalarımızı biruzə vermək üçün «bəh-bəh» ifadəsi ilə kifayətlənirik. Belə gözəllik və ədəblə dolu həyat tərzini əks etdirən bu müqəddəs bayramımıza bütün dünya bayramlarının kənardan həsrətlə baxması təbiidir. Çünki, doğrudan da il boyunca birlik və ünsiyyətin zəiflədiyi bir məqamda Novruzun bu meyarlar üzərinə yeni bir təravət gətirməsi bu bayramın dəyərini bir qədər də artırır.



«Novruz» sözünün mənası «yeni gün» deməkdir. Mənası fars sözündən götürülən və dini kitablarımızda «Novruz günü» adı altında qeyd olunan bu bayram həqiqətən də ayın 19 və 21-ci günlərində qeydə alınmışdır.

Mərhum şairimiz Şəhriyar «Heydər babaya salam» poemasında Novruzu çox gözəl tərənnüm etmişdir:

*Bayram idi gecə quşu oxurdu,*
*Adaxlı qız bəy corabın toxurdu.*
*Hər kəs şalın bir bacadan soxurdu,*
*Ay nə gözəl qaydadı şal sallamaq,*
*Bəy şalına bayram payı bağlamaq!*

*Şal istədim mən də evdə ağladım,*
*Bir şal alıb tez belimə bağladım.*
*Qulamgilə qaçdım, şalı salladım,*
*Fatma xala mənə corab bağladı,*
*Xan nənəmi yada salıb ağladı.*

Novruz bayramı nə xalqımıza, nə də dinimizə heç də qərib bir bayram deyil. Əksinə bu bayram xalqımızın qonaqpərvərliyini və mərdliyini özündə əks etdirən bir ehsandır. Hər bir günahsız günümüz qoy bizə bayram olsun. Allah bizə bu bayramı, nə vaxtdan bəri yolunu gözlədiyimiz Ağamız İmam Mehdiylə (ə.c.) bahəm keçirməyi ehsan etsin. Amin!

**M.CAVADOV**

*Cavanşir Sadıqov- 60*

# Kamillik dövrünü yaşayan pedaqoq



**Universitetimizin "Azərbaycan tarixi" kafedrasının dosenti Cavanşir Şükür oğlu Sadıqovun bu günlərdə 60 yaşı, pedaqoji fəaliyyətinin 39 ili tamam olur. 60 yaş hər bir ziyalı üçün kamillik dövrü hesab oluna bilər. O, bu dövrə çatmaq üçün həyatın nə qədər enişli-yoxuşlu yollarını qət edib, çətinliklərlə üzləşib. Məlum həqiqətdir ki, kamillik zirvəsinin fəthi sadə şəkildə, asanlıqla əldə edilmir.**

Cavanşir Sadıqov 1953-cü ilin fevral ayında respublikanın tanınmış ziyalısı, tarix ictimaiyyəti içərisində böyük nüfuz sahibi olmuş professor Şükür Sadıqovun ailəsində dünyaya göz açıb. O, 1970-ci ildə Bakı şəhəri 225 N-li orta məktəbi bitirib 1970-1974-cü illərdə Azərbaycan Pedaqoji Universitetinin tarix fakültəsində təhsil alaraq tarixçi ixtisasına yiyələnmişdir. C.Sadıqov 1974-1990-cı illərdə Azərbaycan Pedaqoji Rus dili və ədəbiyyatı institutunun (Slavyan Universitetinin) tarix kafedrasında müəllim və baş müəllim vəzifəsində çalışmışdır. 1974-1975-ci illərdə hərbi xidmətdə olan Cavanşir müəllim 1988-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. O, 1990-cı ildən Azərbaycan Tibb Universitetinin «Azərbaycan tarixi» kafedrasında baş müəllim, 1992-ci ildən dosent vəzifəsində çalışır.

C.Sadıqov məhsuldar alim-pedaqoqdur. Universitetimizdə çalışdığı müddətdə "Azərbaycan tarixi" fənninin daima keyfiyyətli tədrisi qayğısına qalmışdır. Onun dövrü mətbuatda, müxtəlif elmi dərgilərdə tariximizin ayrı-ayrı problemlərinə həsr edilmiş çoxsaylı əsərləri nəşr edilmişdir. C.Sadıqovun Yəmən, Respublikasında nəşr edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlı məqaləsi tariximizin xaricdə təbliği baxımından olduqca əhəmiyyətlidir. O, müxtəlif elmi konfransların iştirakçısı olmuş, onlarda çıxışlar etmişdir. Dosent C.Sadıqov rus və ingilis dillərində yazılmış dərsliklərin də müəllifidir. O, bu kitabları qeyd olunan dillərdə "Azərbaycan tarixi" dərsliklərinin demək olar ki, olmamasını nəzərə alaraq qələmə almışdır. Cavanşir müəllim eyni zamanda dərs dediyi fənnin proqramını da hazırlamışdır.

Cavanşir Sadıqov pedaqoji fəaliyyətlə bağlı elmi-tədqiqat işlərini də davam etdirir. Belə ki, o, "Heydər Əliyevin neft strategiyası və onun uğurlu nəticələri" mövzusunda doktorluq dissertasiyası üzərində çalışır. Yeri gəlmişkən qeyd edək ki, Cavanşir müəllim respublikada bu problemlə məşğul olan yeganə tədqiqatçıdır. Adından və dissertasiyasının planından göründüyü kimi qeyd olunan strategiyanın uğurlu nəticələri ölkə başçısı İlham Əliyevin adı ilə bağlıdır.

Dosent C.Sadıqov ən mühüm tarixi hadisələrlə bağlı kafedrada elmi-praktiki konfransların və digər tədbirlərin təşkilində fəal rol oynayır. O, tanınmış alim-pedaqoq kimi Respublikanın, Universitetin ictimai-siyasi həyatında yaxından iştirak edir. Təcrübəli pedaqoq kimi həm kollektiv, həm də tələbələr arasında böyük nüfuz qazanmışdır.

Bütün kollektivimiz adından Cavanşir müəllimi 60 illik yubileyi münasibəti ilə səmimi təbrik edir, ona elmi-pedaqoji fəaliyyətində daha böyük uğurlar arzulayırıq.

**F.MƏMMƏDOV,**
*"Azərbaycan tarixi" kafedrasının müdiri, professor*

# XI universiadaya müsbət start verildi

**Bu ilin mart ayında "Gənclik" tələbə idman cəmiyyətinin vasitəsi ilə ali təhsil məktəblərinin XI universiadası başlandı.**

Martın 4- də dama idman növü üzrə yarışda bizim universitetin yığma komandası müvəffəqiyyətlə çıxış edərək, Respublikanın bütün ali məktəblərinin komandalarına qalib gələrək birinci yerə çıxdı.

Bu parlaq qələbənin qazanılmasında tələbələrimizdən Ağaməcid Bağırovun- $162^{a}$, Rəşid Qədirovun -$761^{b}$, Rakif Əhmədlinin- $101^{b}$, Ülfət Əlizadənin- $1122^{a}$, Oruc Hüseynlinin- 722 və Leyli Sadıxlının-91 adlarını xüsusi qeyd edir və komandanın məşqçisi Kəmalə xanım Qurbanovanı ürəkdən təbrik edirik.

**S.İSAYEVA,**
*İdman klubunun sədri*

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri:**
- Əczaçılıq kimyası kafedrası (ə.e.d., prof.)
- Terapevtik stomatologiya (t.e.d.)

**Kafedranın professoru:**
- II uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri (fəlsəfə doktorları):**
- Nevrologiya və tibbi genetika kafedrası - 1 yer
- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- I cərrahi xəstəliklər kafedrası - 1 yer
- Dermatovenerologiya kafedrası - 1 yer
- Tibbi fizika və informatika kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer

**Kafedranın baş müəllimi:**
- Mikrobiologiya və immunologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedranın müəllimləri:**
- Xarici dillər kafedrası -1 yer (0,5 vahid)
- Bədən tərbiyəsi və idman kafedrası - 1 yer

**Kafedraların assistentləri:**
- II daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- I cərrahi xəstəliklər kafedrası - 1 yer
- Neyrocərrahlıq kursu - 1 yer
- Neyrocərrahlıq kursu - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,75 vahid)
- MPF-nin uşaq xəstəlikləri kafedrası - 1 yer
- MPF-nin uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Pediatriya fakültəsinin cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- Qulaq, burun, bogaz xəstəlikləri kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji anatomiya kafedrası - 1 yer (0,5 vahid)

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

Bakı şəhəri- Az 1007, Bakıxanov küçəsi 23

*Telefon: 597-43-23.*



*Əzizimiz Lətifə! Səni 12 yaşının tamam olması münasibətilə babaların İrzalı və İlham, nənələrin Lətifə və Narifə, atan Taleh, anan Limayət, qardaşın Zaka və səni sevən bütün doğmaların ürəkdən təbrik edir, həyatda xoşbəxtlik və səadət dolu uzun ömür sürməyini arzulayırlar!*





# MİNNƏTDARLIQ

**◆ 2012-ci ilin oktyabr ayında anamı Mərkəzi Neftçilər Xəstəxanasına ürəyin işemik xəstəliyi, sol mədəciyin arxa divarının miokardının kəskin infarktı diaqnozu ilə gətirdik. Burada kardioloji şöbədə həkim-kardioloq Nazilə xanım Tağıyeva onu müalicə etməyə başladı.Vaxtında edilən müalicə tədbirləri öz müsbət nəticəsini tezliklə göstərdi və anamı evə aparıb sonrakı təyinatları davam etməyə başladıq. Nazilə xanım anama ürək damarlarının rentgen şəklini çəkməyi də məsləhət görmüşdü, lakin müalicənin yaxşı nəticəsi onu yubatdı.**

Dekabrın 25-də qəfildən anamın vəziyyəti dəyişdi, bu dəfə təcili yardım həkimi mikro-infarkt əlamətlərinin olduğunu dedi. Angioqrafiya mütləq olmalı idi. İntervension şöbənin müdiri, tibb üzrə fəlsəfə doktoru Abbasəli Abbasəliyevin iştirakı ilə bu əməliyyat edildi və məlum oldu ki, anamın ürəyinin üç damarı 60-90% tutulub. Həkimin məsləhəti ilə anamı ürək əməliyyatına hazırlamağa başladıq. Kardiocərrah, tibb üzrə fəlsəfə doktoru Rəşad Mahmudov haqqında eşitmişdik. Bütün analiz, EXO, rentgen şəkillərinə baxandan sonra Rəşad həkim əməliyyat gününü təyin etdi. Mərkəzi Neftçilər Xəstəxanasında bizə lazım olan tez vaxt olmadığından anamı Respublika Diaqnostika mərkəzinə göndərdilər. Böyük həyəcanla əməliyyatı gözləyirdik. Diaqnostika Mərkəzinə daxil olduğumuz gündən içimizdəki bütün narahatlığımız keçdi. Buradakı gülərüz personal bizi daha da ümidləndirdi.Anestezioloq Fəxri həkim əməliyyatdan öncəki analiz və təyinatları etdikdən sonra fevralın 1-də saat 6-30-da başlayan əməliyyatın 14-00-da uğurla bitdiyini Rəşad həkimin özü bildirdi. 1 gün reanimasiya, 10 gün palatada müalicə alan anam və ailəmizin üzvləri həkimlərin və mehriban kollektivin qayğısından çox razı qaldıq. Həkimlər Natiq, Pərviz, Rəşid, Orxan, tibb bacıları Fatimə, Ülviyyə, Natəvan, Nərgiz, Aynur, Aysel, Yeganə, Məhbubə, tibb işçiləri Kəmaləddin, Kamran, Təbriz, mətbəx işçiləri Nailə xanım, Aygün, Bikə, təmizlik işçiləri Xanım, Xatirə, Cəmalə, Aynur, Bəsirənin zəhmətsevərliyi və diqqəti anamın daha tez ayağa qalxmasına kömək etdi. Təsadüf elə gətirdi ki, anamın ad günü də xəstəxanada yatdığı vaxta düşdü. Fevralın 8-də Rəşad həkimin anamı təbrik etməyə gəlməsi onun üçün gözlənilməz oldu. Əməliyyatdan sonra anam elə hey onu əməliyyat edən həkimə dua edir, görəndə deyəcəyi təşəkkür sözlərini təkrarlayırdı. Bu görüş anamı elə duyğulandırdı ki, deyəcəyi sözləri unutdu, yalnız "Çox sağ olun, Allah sizi qorusun"- deyə bildi, ona yaxınlaşan həkimi öz oğlu kimi qucaqlayıb əllərindən öpdü. Həkim gedəndən sonra isə göz yaşlarıyla "Bu Allahın lütfüdür ki, onu Rəşad həkimin simasında insanlara göndərib, bu Yusifdir,siz bilmirsiniz"-dedi.

Bu həyatda hər kəsin bir qisməti var. Şükürlər olsun Allaha ki, mənim anama da belə qismət nəsib olub. Azərbaycan Tibb Universitetinin əməkdaşları olduğumuz üçün bizə xüsusi diqqət ayırdıqlarını qeyd etmək lazımdır. Çox sağ olun, sevimli insanlar, ömrünüz uzun olsun, həyatda arzuladıqlarınıza çatasınız. Anam, ailəmiz və qohumlarımız adından Sizə dərin təşəkkürümüzü bildiririk.

**Sevinc HÜSEYNOVA,**
*Əsaslı kitabxananın əməkdaşı*

# Ömür sərhədinin keşiyindəsən

*Həkim-neyrocərrah İsmayıl Qarayevə ithaf olunur*

Ömür sərhədinin keşiyindəsən ,
Hamının evində, eşiyindəsən.
Hər körpə fidanın beşiyindəsən,
Dan yerindən gəlir amalın sənin.

Xalqın alqışıyla elə həyansan,
Diləkdə baharsan, könüldə cansan.
Özün eşqin boyda Azərbaycansan,
Ümiddən süzülür xəyalın sənin.

Yaddı taleyinə əyləncə, səfa,
Peşəndən tağ atıb gül tutan şəfa.
Dərs verənə dərsdi səndəki vəfa,
Göylərə köklənib iqbalın sənin.

Qəlbinin payıdır özündən gələn,
Gözündən nur alıb sözündən gələn.
Tanrı işığımı közündən gələn?
Saflıq dəyərindi cəlalın sənin.

**Elnur İRƏVANLI**

## Etibarsız sayılır

II müalicə- profilaktika fakültəsinin I kurs, 301[b] qrup tələbəsi Namazov Tural Sirafil oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Hərbi Tibb fakültəsinin I kurs, 1140[a] qrup tələbəsi Səfərov Ruzi Sədi oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

ATU-nun hazırlıq şöbəsinin dinləyicisi Al Hammoud Mohamad Mohamad Mahmoudun adına verilmiş Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq haqqında vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Pediatriya fakültəsinin IV kurs, 402[a] qrup tələbəsi Qədimli Gülməkan Qədim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Əczaçılıq fakültəsinin V kurs, 815[b] qrup tələbəsi Səlməd Səmir Mühəmməd Nurinin adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Stomatologiya fakültəsinin IV kurs, 723[b] qrup tələbəsi Mohəmməd Zadeh Əlinin adına verilmiş hazırlıq kursunu bitirməsi haqqında şəhadətnamə və tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Stomatologiya fakültəsinin I kurs, 775[b] qrup tələbəsi Mohammed Talah Abdullah Khateebin adına verilmiş İraq respublikasının vətəndaşlıq pasportu itdiyi üçün etibarsız sayılır.

Pediatriya fakültəsinin VI kurs, 468[b] qrup tələbəsi Xudirzadə Nigar Əkbər qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Stomatologiya fakültəsinin V kurs, 741[b] qrup tələbəsi Kərimzadə Rüstəm Fuad oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

II müalicə- profilaktika fakültəsinin I kurs, 306[a] qrup tələbəsi Miriyev Orxan Teyyub oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Stomatologiya fakültəsinin IV kurs, 737[c] qrup tələbəsi Dlovan Mohammed Sabirin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Fəlsəfə kafedrasının əməkdaşları Bayramovlar ailəsinə əzizləri

**Yusif Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları "Virtual" test mərkəzinin rəhbəri Şahin Bayramova əmisi

**Yusif Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan dili, ümumi gigiyena və ekologiya, farmakologiya, ümumi və toksikoloji kimya, qidalanma və kommunal gigiyena kafedralarının əməkdaşları I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramova atası

**Yusif Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ümumi və toksikoloji kimya kafedrasının əməkdaşları kafedranın dosenti Eldar Əhmədova əzizi

**Əhməd Qurbanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Uşaq cərrahlığı kafedrasının əməkdaşları kafedranın assistenti Binnət Sofiyevə atası

**Əhməd Sofiyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 997